(Eylə bilirdim ki, dəxi sübh olub)

İlk dəfə “Molla Nəsrəddin” jurnalında (6 yanvar 1907, № 1) “Hop-hop” imzası ilə çap olunmuşdur.

(Ey fələk, zülmün əyandır..)

İlk dəfə “Molla Nəsrəddin” jurnalında (19 yanvar 1907, № 3) “Hop-hop” imzası ilə çap olunmuşdur.

(Nolur şirinməzaq etsə məni həlvayi-hürriyyət)

İlk dəfə “Molla Nəsrəddin” jurnalında (19 yanvar 1907, № 3) “Molla Nəsrəddin” imzası ilə çap olunmuşdur.

Jurnalda şerdən əvvəl C. Məmmədquluzadənin “Həmşəri” adlı felyetonu verilmişdir.

Nəfsin qərəzi, əqlin mərəzi

(“Ey nəfs, fərz bildiyim üçün niyayişin”)

İlk dəfə “İrşad” qəzetində (24 yanvar 1907, № 16) “Mirat” imzası ilə çap olunmuşdur.

(Ey əzizim, xələfim…)

İlk dəfə “Molla Nəsrəddin” jurnalında (10 fevral 1907, № 6) “Hop-hop” imzası ilə çap olunmuşdur.

Xəsisin heyfi, varisin keyfi

(“Ey pul! Ey zövqi-dilü ruhi-tənü qüvvəti-can!”)

İlk dəfə “İrşad” qəzetində (21 fevral 1907, № 30) “Mirat” imzası ilə çap olunmuşdur.

(Səradən bir dəli şeytan deyər: insanlar, insanlar!)

İlk dəfə “Molla Nəsrəddin” jurnalında (3 mart 1907, № 9) “Qabaqda gedən zəncirli” imzası

ilə çap olunmuşdur.

Bu şer “Füyuzat” jurnalının 1 noyabr 1906-cı il rarixli 1-ci nömrəsində “Dəli şair” imzası ilə dərc edilmiş

“Heyrət, yaxud bir mələyin insanlara xitabı” adlı şerə nəzirədir.

Şer belə başlanır:

“Səmadən bir mələk heyrətlə der: insanlar, insanlar!
Nədir bu ruyi-ərzi qaplıyır al qanlar, insanlar!”

(Amalımız, əfkarımız ifnayi-vətəndir)

İlk dəfə “Molla Nəsrəddin” jurnalında (10 mart 1907, № 10) “Qabaqda gedən zəncirli” imzası ilə çap olunmuşdur.

Bu şer Namiq Kamalın Füyuzat” jurnalının 1907-cı il 3 mart rarixli 11-ci nömrəsində dərc edilmiş bir şerinə nəzirədir.

Şerin ilk bəndi belədir:

“Amalımız, əfkarımız iqbali-vətəndir,
Sərhəddimizə qələ bizim xaki-bədəndir,
Osmanlılarız, zinətimiz qanlı kəfəndir,
Qovğadə şəhadətlə bütün kam alırız biz,
Osmanlılarız, can veririz, kam alırız biz!..”

Sərhesab

(“Səs ucalaşdı, qoymayın!”)

İlk dəfə “Molla Nəsrəddin” jurnalında (31 mart 1907, № 13) “Din dirəyi” imzası ilə çap olunmuşdur.

Ağlaşma

("Nə rəvadır əğniyalər baxa ac qalanə, ya rəb!")

İlk dəfə "Molla Nəsrəddin" jurnalında (7 aprel 1907, № 14) "Fazil" imzası ilə çap olunmuşdur.

Tömeyi-nəhar

("Çığırma, yat, ay ac toyuq, yuxunda çoxca darı gör!")

İlk dəfə "Molla Nəsrəddin" jurnalında (14 aprel 1907, № 15) "Çayda çapan" imzası ilə çap olunmuşdur.

*O zaman Zəngəzur mahalında hökm sürən aclıq nəzərdə tutulur.

(Vay, vay! Nə yaman müşgülə düşdü işim, allah!)

İlk dəfə "Molla Nəsrəddin" jurnalında (28 aprel 1907, № 17) "Örümçək" imzası ilə çap olunmuşdur.

*Rus-yapon müharibəsinə və ondan sonra güclənən azadlıq hərəkatına işarə olunur.

Müharibədə Yaponiyanın məqsədi Koreyanı və Məncuriyanı tutmaq, Asiya qitəsində möhkəmlənmək idi. Rus çarizmi isə həm Uzaq Şərqdə işğalçılıq siyasəti yeridir, həm də elə düşünürdü ki, müharibə yaxınlaşmaqda olan inqilabın qarşısını almağa kömək edər.

*”Bildir, inişil” dedikdə şair 1905-1906-cı illərin inqilabi hadisələrini nəzərdə tutur.

(Övradımız, əzkarımız əfsaneyi-zəndir)

İlk dəfə “Molla Nəsrəddin” jurnalında (5 may 1907, № 18) “Boynuyoğun” imzası ilə çap olunmuşdur.

Bu satirə Namiq Kamalın 1907-ci ildə “Füyuzat” jurnalında (3 mart, № 11) çap edilmiş, “Amalımız, əfkarımız iqbali-vətəndir” misrası ilə başlanan şerinə ikinci nəzirədir.

(Hə, de görüm, nə oldu bəs, ay balam, iddəaların?)

İkinci dövlət dumasının bağlanması ərəfəsində yazılan bu şer ilk dəfə “Molla Nəsrəddin” jurnalında (12 may 1907, № 19) imzasız çap olunmuşdur.

*Atabəy Əzəm (Mirzə Ələsgər xan) (1857-1907) – O zaman İranın baş naziri idi. 1905-1911-ci illər inqilabı ərəfəsində İranı dəhşətli aclıq bürümüş, xalq hərəkatı güclənmişdi. Baş nazir əleyhinə Tehran, Təbriz və başqa şəhərlərdə vərəqələr yayılırdı. Xalq hərəkatının təzyiqi altında şah Atabəy Əzəmi baş nazir vəzifəsindən azad etmiş və onun yerinə digər qəddar əksinqilabçını – Eynüddövləni təyin etmişdi.

(Fələ, özünü sən də bir insanmı sanırsan?!)

İlk dəfə "Molla Nəsrəddin" jurnalında (26 may 1907, № 21) imzasız çap olunmuşdur.

(Naəhl olana mətləbi andırmaq olurmu?!)

İlk dəfə "Molla Nəsrəddin" jurnalında (1 iyul 1907, № 24) imzasız çap olunmuşdur.

(Pah atonnan, nə ağır yatdı bu oğlan, ölübə!)

İlk dəfə "Molla Nəsrəddin" jurnalında (8 iyul 1907, № 25) imzasız çap olunmuşdur.

Təraneyi-əsilanə

("Nə soxulmusan arayə, a başı bəlalı fələ?!")

İlk dəfə "Bəhlul" jurnalında (14 iyul 1907, № 5) imzasız çap olunmuşdur.

Leyli-Məcnun

("Ey dövlətimin zəvalı oğlum!")

İlk dəfə "Molla Nəsrəddin" jurnalında (15 iyul 1907, № 26) imzasız çap olunmuşdur.

Bu şer Füzulinin "Leyli və Məcnun" poemasında Məcnuna atası tərəfindən edilən nəsihətə bənzətmədir.

Nəsihət belə başlanır:

"Ey cövhəri-canımın həvası,
Vey dideyi-bəxtəmin ziyası!"

(Məzlumluq edib başlama fəryadə, əkinçi!)

İlk dəfə "Molla Nəsrəddin" jurnalında (24 iyul 1907, № 27) imzasız çap olunmuşdur.

(Əlminnətü-lillah ki, "Dəbistan" da qapandı!)

"Dəbistan" jurnalının bağlanması münasibəti ilə yazılan bu şer ilk dəfə "Molla Nəsrəddin" jurnalında
(29 iyul 1907, № 28) imzasız çap olunmuşdur.

*"Dəbistan" – 1906-1908-ci illərdə Bakıda uşaqlara məxsus iki həftədə bir nəşr olunan şəkilli jurnal idi. Ilk nömrəsi 1906-cı il aprelin 16-da çıxmışdır. Naşir və redaktorları Məhəmməd Həsən Əfəndizadə və müəllim Əliskəndər Cəfərzadə idi.
Şer yazıldığı vaxt, 1907-ci il iyunun 4-də çıxan 8-ci nömrədən sonra "Dəbistan"ın nəşri dayanmışdı. Növbəti 9-cu nömrəsi təxminən doqquz aylıq fasilədən sonra, 1908-ci il martın 10-da buraxılmışdır.

*”Ülfət” – 1905-1907-ci illərdə Peterburqda tatar dilində sensorsuz buraxılan “siyasi, elmi bir qəzetə” idi. Naşir və redaktoru Əbdülrəşid İbrahimov idi. (Müxtəlif vaxtlarda müvəqqəti redaktor və naşiri Əhməd Münir İbrahimov olmuşdur). Bu qəzetdə M. Ə. Sabirin də bir-iki şeri çap edilmişdir.

*”Bürhani-tərəqqi” – 1906-1911-ci illərdə Həştərxanda müəyyən fasilələrlə nəşr olunan dindar, təəssübkeş bir qəzet idi. Naşir və redaktoru Mustafa Lütfi İsmayılov Şirvanski idi. Qəzetdə yerli müəlliflərlə yanaşı, N. Nərimanov da bir sıra məqalələr dərc etdirmişdir. Burada habelə, M. Ə. Sabir, M. Hadi və başqalarının da bəzi əsərləri çap olunmuşdur.

1907-ci ilin iyun ayının axırlarında “Bürhani-tərəqqi” qəzetinin nəşri dayanmışdır. Təxminən beş ay sonra qəzet yenidən bərpa olunmuş və 1907-ci ilin 18 noyabrında növbəti 1-ci nömrəsi buraxılmışdır.

*”Həmiyyət” – 1907-ci ildə Həştərxanda həftədə bir dəfə nəşr olunan “siyasi, elmi, fənni, ədəbi, iqtisadi və ticari... cərideyi-islamiyyə” idi. Naşiri və baş redaktoru Mustafa Lütfi İsmayılov Şirvanski idi.

*”Rəhbər” – 1906-1907-ci illərdə Bakıda nəşr olunan, Qafqaz və Rusiyanın, xüsusən Rusiya müsəlmanlıların məişətindən, “ədəbiyyatindan, üsuli-təlim və tərbiyədən bəhs edən” jurnal idi. Naşir və redaktoru müəllim Mahmudbəy Mahmudbəyov idi. Jurnalda F. Köçərli, M. Ə. Sabir, A. Səhnət, R. Əfəndizadə, S. M. Qənizadə və başqa müəlliflər iştirak etmişlər.

*”İrşad” – 1905-1908-ci illərdə Bakıda nəşr olunan gündəlik ictimai-siyasi qəzet idi. Redaktoru Əhmədbəy Ağayev (bir müddət müvəqqəti redaktoru Haşımbəy Vəzirov olmuşdur), naşiri isə İsabəy Aşurbəyov (sonralar Bəşirbəy Aşurbəylovla birlikdə) idi. Qəzetdə burjua mühərrirlərindən əlavə, Ü. Hacıbəyov, N. Narimanov, S. M. Əfəndiyev, M. Ə. Sabir, A. Səhnət, H. İ. Qasımov, F. Köçərli, R. Əfəndizadə, Ə. Qəmküsar, Ö. F. Nemanzadə, S. M. Qənizadə, A. Sur, M. S. Axundov və başqaları kimi yazıçı və ictimai xadimlər öz yazıları ilə iştirak etmişlər.

Şer yazıldığı vaxt, 1907-ci ilin 20 iyununda çıxan 115-ci nömrədən sonra “İrşad” qəzetinin nəşri dayanmışdı. Qəzetin növbəti 116-cı nömrəsi təxminən dörd aylıq fasilədən sonra, 1907-ci il noyabr ayının 17-də buraxılmışdır.

*”Təkamül” – 1906-1907-ci illərdə Bakıda çıxan bolşevik qəzeti idi. Qəzetin rəsmi redaktoru və naşiri Mehdibəy Hacınski olsa da, ideya istiqamətini bolşeviklər təyin edirdilər. Qəzetdə görkəmli ictimai xadimlərə yanaşı, M. Hadi, Ə. Cənnəti kimi şair və yazıçılar da iştirak etmişlər.

Uçitellər

("Tövqif edilmişdi mağıl Gəncə siyezdi")

İkinci müəllimlər qurultayı ərəfəsində yazılan bu satira ilk dəfə "Molla Nəsrəddin" jurnalında (12 avqust 1907, № 30) imzasız çap olunmuşdur.

*"Nicat" – Bakıda təşkil olunmuş xeyriyyə cəmiyyəti idi. Müəllimlər qurultayı bu cəmiyyətin təşəbbüsü ilə çağırılmışdı.

(Vəqta ki qopur bir evdə matəm)

İlk dəfə "Molla Nəsrəddin" jurnalında (20 avqust 1907, № 31) imzasız çap olunmuşdur.
Istər jurnalda, istərsə birinci və ikinci nəşrdə şerdən əvvəl belə bir qeyd vardır: "Rəcaizadə Məhmud Əkrəm bəy əfəndi həzrətlərinin "Yad et" ünvanlı əşarına nəzirə".
Rəcaizadənin həmin şeri belə başlanır:

"Vəqta ki, gəlib bəhar... yeksər
Əşyadə əyan olur təxəyyür.
Vəqta ki, həzar eşqpərvər
Yapraqlar ilə edib təsəttür,
Bilməm kimə qarşı həsrətindən
Başlar nəvəhatə bitəəxxür...
Safiyyəti-üşmi təxəttür,
Yad et bəni, bir dəqiqə yad et!"

Fəxriyyə

("Hərçənd əsirani-qüyudati-zəmanız")

İlk dəfə "Molla Nəsrəddin" jurnalında (26 avqust 1907, № 32) imzasız çap olunmuşdur. Bu satira Ə. Cənnətinin 1907-ci ildə "Füyuzat" jurnalının 7 avqust tarixli 24-cü nömrəsindəki "Fəxriyyə" adlı şerinə cavab olaraq yazılmışdır.

Cənnətinin şerinin ilk bəndi belədir:

"Hərçənd düçari-mihəni-əhli-cəfayız,
Hərçənd bu əyyamdə padəndi-bəlayız,
Ey xar görən bizləri, bizlər nücəbayız,
Meydani-həmiyyətdə ələmdari-vəfayız,
Turanlılarız, sahibi-şənü şərəfiz biz!
Əslafımızın naibi xeyrülxələfiz biz!.."

*Məlik şah (1055-1092) – İşğalçı səlcuq hökmdarı idi. Atası Alp Arslan öləndən sonra hakimiyyət başına keçmişdi. O, öz hakimiyyəti dövründə (1072-1092) səlcuqilərin hökmranlığını Azərbaycanın şimal vilayətlərində də möhkəmləndirməyə çalışmış, 1056-cı ildə Gəncə üzərinə qoşun göndərib oranı talan etdirmişdi.

*Çingizxan (Temuçin) (1155-1227) – Monqol xanı və sərkərdəsi idi. Onun hakimiyyəti dövründə (1206-1227) Monqol dövləti təşkil olunmuşdur. 1220-ci ildə Çingizxanın süvari dəstələri İrana, sonra isə Azərbaycana soxulmuş, Təbriz, Marağa, Gəncə, Şamaxı və s. şəhərləri çapıb talamışdı.

*Xarəzm dövləti – 1220-ci ildə Çingizxan qoşunlarının basqını nəticəsində süquta uğramışdı.

*Səlib yürüşləri – XI-XIII əsrlərdə Qərbi Avropa feodallarının Beytül-müqəddəsi "kafir" müsəlmanların hakimiyyətindən "xilas etmək", katolisizmi müdafiə edib yaymaq və s. kimi dini şüarlar altında apardıqları işğalçılıq yürüşləri idi.

*Qaraqoyunlu – XV əsrin birinci yarısında yaranmış feodal dövləti idi. 1468-ci ilədək yaşamışdır. Paytaxtı Təbriz olan bu dövlətin tərkibinə Kürdən cənuba doğru uzanan Azərbaycan torpaqları, Ermənistan, Gürcüstan və ərəb İraqı daxil idi.

*Ağqoyunlu – XV əsrin ikinci yarısında yaranmış feodal dövləti idi. 1467-ci ildə baş vermiş vuruşmadan sonra Qaraqoyunlu dövləti süquta uğradı və yeni Ağqoyunlu dövləti yarandı. Dövlətin paytaxtı Təbriz idi. Bu dövlət özünün ən qüdrətli dövründə Kürdən cənubda olan Azərbaycan vilayətlərini, Ermənistanı, Diyarbəkri, Gürcüstanı, ərəb İraqını, Gilan, Mazandaran və Xorasandan başqa, İranın qalan vilayətlərini əhatə etmişdi.

*Teymur, Teymurləng (topal Teymur) – (1336-1405) – Orta Asiya sərkərdəsi və istilaçısı idi. O, öz hakimiyyəti dövründə (1370-1405) böyük qüvvə ilə Azərbaycana hücum etmişdi.

*İldırım Bayezid (1360-1403) – 1389-1402-ci illərdə Türkiyə sultanı olmuşdur. Atası I Sultan Muradın vəfatından sonra taxta çıxmış və öz sələflərinin istilaçılıq siyasətini davam etdirərək, Avropa və Asiyada geniş ərazi tutmuşdu. 1402-ci ildə Anqara ətafındakı vuruşmada əsir alınmış və əsirlikdə də ölmüşdür.

*Toxtamış (?-1406) – Qızıl Orda xanı idi. 1385-ci ilin sonları, 1386-cı ilin əvvəllərində böyük bir qoşunla Azərbaycana soxulmuş, Şirvan, Təbriz, Marağa və s. şəhərləri talan etmişdi.

*Qızıl Orda – XIII əsrin 40-cı illərində monqol istilası nəticəsində Orta Asiya və Şərqi Avropanın geniş ərazisində yaradılmış feodal dövləti idi. XV əsrin axırlarına qədər davam etmişdi.

*Şah İsmayıl (1486-1524) – Səfəvilər sülaləsinin banisi, Azərbaycanın görkəmli dövlət xadimi və şairi idi. 1502-1524-cü illərdə Azərbaycan və İran şahı olmuşdur. Öz hakimiyyəti dövründə elm və incəsənətin inkişafına kömək göstərmişdir. "Xətai" təxəllüsü ilə Azərbaycan dilində şer divanı, "Dəhnamə", "Nəsihətnamə" və s. kimi əsərlər yazmışdır.

*Sultan Səlim (1467-1520) – 1512-1520-ci illərdə Türkiyə sultanı olmuşdur. Səfəvi dövlətinə qarşı mübarizə aparmış, bu dövlətin ərazisində yaşayan 40 mindən artıq adamı edam etdirmişdi. Səfəviləri müsəlman dininin düşməni elan etmiş və öz işğalçı yürüşünü "islamın müdafiəsi" şüarı altında aparmışdır.

*Nadir şah (1688-1747) – 1736-1747-ci illərdə İran şahı olmuşdur. Iran feodallarının mənafeyi üçün Azərbaycan, Ermənistan, Gürcüstan, Dağıstan, Buxara xanlığına və s. yerlərə işğalçı yürüşlər etmişdir. 1747-ci ildə sui-qəsd nəticəsində öldürülmüşdür.

Qorxuram

("Payi-piyadə düşürəm çöllərə")

İlk dəfə "Molla Nəsrəddin" jurnalında (2 sentyabr 1907, № 33) imzasız çap olunmuşdur.

(Bəzi yerlərdə təsadüf olunur aşa, ətə)

İlk dəfə “Bəhlul” jurnalında (13 sentyabr 1907, № 6) imzasız çap olunmuşdur.
*”Bəhlul” – 1907-ci ildə Bakıda “Molla Nəsrəddin”in təsiri ilə nəşrə başlayan, ayda iki dəfə nəşr olunan “məzhəkə səyağında siyasi, fənni, ədəbi, iqtisadi və ictimai” jurnal idi. Redaktoru bolşevik Ələsgər Əliyev idi. Jurnalda M. Ə. Sabir, Ə. Qəmküsar, H. İ. Qasımov və başqaları iştirak etmişlər.

(Mən belə əsrarı qana bilmirəm)

İlk dəfə “Bəhlul” jurnalında (13 sentyabr 1907, № 6) imzasız çap olunmuşdur.
Jurnaldan satiradan əvvəl “Qana bilmirəm” adlı imzasız bir felyeton çap olunmuşdur. Şerin məzmunu və ideya istiqaməti ilə sıx bağlı olub, M. Ə. Sabir tərəfindən yazıldığı ehtimal edilir.

Müəllimlər siyezdi

(“Baş tutdu müəllimlərin iclasi-siyezdi”)

İkinci müəllimlər qurultayı ilə əlaqədar yazılan bu şer ilk dəfə “Molla Nəsrəddin” jurnalında (17 sentyabr 1907, № 35) imzasız çap olunmuşdur.
“Jurnalda Sabirin bu şeri haqqında belə bir qeyd verilmişdir: “Bu şerlər 33-cü nömrədə çap olunacaqdı. Bəzi səbəblərə görə bu nömrəyə qaldı”.

(Çapma atını, girmə bu meydanə, a molla!)

İlk dəfə “Molla Nəsrəddin” jurnalında (17 sentyabr 1907, № 35) imzasız çap olunmuşdur.

*“Molla Nəsrəddin” jurnalı nəzərdə tutulur.

*”Çehil Tuti” – “Min bir gecə” üslubunda farsca yazılmış mövhumi nağıl kitabıdır. Kitaba Tuti tərəfindən söylənən, məhəbbətdən bəhs edən qırx nağıl daxildir.

İki cavablara bir cavab

(“Loğalaşıb, a görməmiş, çox da belə fırıldama!”)

İlk dəfə “Molla Nəsrəddin” jurnalında (2 oktyabr 1907, № 37) imzasız çap olunmuşdur.

M. Ə. Sabirin “Hə, de görüm, nə oldu bəs, ay balam, iddiaların?” misrası ilə başlanan satirası “Molla Nəsrəddin” jurnalında (12 may 1907, № 19) çap ediləndən sonra “Tazə həyat” qəzetində həmin satiraya şerlə iki cavab verilmişdir. Cavablardan biri qəzetin 1907-ci il 29 avqust tarixli 107-ci nömrəsində “Məhəmməd Məhəmmədzadə” imzası ilə, digəri isə sentyabrın 6-da çıxan 113-cü nömrəsində “Müsəlman” imzası ilə çap olunmuşdur.

Birinci cavabın ilk iki bəndi belədir:

“Hə, a balam, a özgəyə verməyən öz əlindəkin,
Söyləyirik gecə-günüz iş görən əncüməndəkin.
İndi necə görür gözün əncümən əhlinin təkin,
Eyləmisən necə güman, sən deyən oldu, mən deyən?

Hanı o dillərin sənin, heç daxı gəlməyir səsin,
Olmuya bir Ətabəkin ölməyi eylədi bəsin?
Sən kimi batmamışdı bu barədə nitqi heç kəsin,
Halını çox edib yaman, sən deyən oldu, mən deyən?”

Bu şerə nəzirə yazılmış ikinci cavab isə belə başlanır:
“Həmə görisən, a Molla əmu, birbəbir iddiamızı,

Gör necə müstəcab edib tanrı bizim duamızı.
Verdi kəmali-lütf ilə mətləbi müddəamızı,
Indi necə oldu, Molla əmu, mən deyən oldu, sən deyən?"

M. Ə. Sabirin "İki cavablara bir cavab" satirası jurnalda dərc ediləndən sonra M. Məhəmmədzadə "Tazə həyat" qəzetində (12 oktyabr 1907, №144) yenidən Sabirə cavab vermişdir. Cavabın ilk bəndi belədir:

"Hə, de, a bəxtəvər, dağıt dərdü qəmi məlalını,
Tərbiyəsiz uşaq ilə, xoştər elə xəyalını,
Vardı nə eybi, yoxlarıq biz də sənin kəmalını,
Mən dediyim olub, olar, sən deyən olmaz olmasa!.."

*Mirzə Əbülhəsən xan – kəmsəvad bir adam idi. Dostluq və vasitə ilə iş başına keçmişdi. Şair bununla müxtəlif vasitələrlə hakimiyyəti əlinə alan bəzi İran hakimlərinə işarə edir.

(Soldumu gülzarın, ey faiqi-neman pəsər)

İlk dəfə "Molla Nəsrəddin" jurnalında (20 oktyabr 1907, № 39) imzasız çap olunmuşdur.

Şer "Molla Nəsrəddin" jurnalının əməkdaşlarından biri olan Ömər Faiq Nemanzadənin çar hökuməti tərəfindən tutulması münasibəti ilə yazılmışdır.

(Ey on ki, ülumi-mədənidən xəbərin var)

İlk dəfə "Molla Nəsrəddin" jurnalında (20 oktyabr 1907, № 39) imzasız çap olunmuşdur.

Sual-cavab

("- Görmə! – Baş üstə, yumaram gözlərim")

İlk dəfə "Molla Nəsrəddin" jurnalında (26 oktyabr 1907, № 40) imzasız çap olunmuşdur.

İftardan bir göftar, ya məcmuədən bir löqmə

("Atmış niqabi-hüsnin, məcmuəyi-təvangər")

İlk dəfə "Molla Nəsrəddin" jurnalında (11 noyabr 1907, № 42) imzasız çap olunmuşdur.
Jurnalda sərlövhədən sonra belə bir qeyd vardır: "Nəzirə ustadi-möhtərəm Əkrəm bəyə...".
Bu satira Rəcaizadə Mahmud Əkrəm bəyin 1907-ci ildə "Füyuzat" jurnalının 7 oktyabr tarixli 29-cu nömrəsində çap olunmuş "Bəhardan bir yapraq, yaxud zümzümədən bir nəğmə" adlı şerinə nəzirədir.

Şerin ilk bəndi belədir:

"Atmış niqabi-hüsnün məhbubeyi-zərəfsər,
Qırlar yəşil geyinmiş... açmış bütün çiçəklər,
Ahəngriz gülşən mürğani-eşqpərvər...
Cari səfadə culər... sari həvayə ənbər...
Əksi-səhabi-rəngin... zilli-cibali-əxzər
Dəryayi-lacüvərdə olmaqda zinətavər.
Ənvar içində aləm... əşvaq içində hər yer...
Fəsli-bəhardır bu... ey dilbəri-səmənbər!
Quşlar çəmənsiz olmaz!...
Könlüm də sənsiz olmaz!"...

(Bimərhəmət əyanlarına şükr, xudaya!)

İlk dəfə “Molla Nəsrəddin” jurnalında (16 dekabr 1907, № 47) imzasız çap olunmuşdur.

Məktub

(“Molla dayı, etmə şərarət belə”)

İlk dəfə “Molla Nəsrəddin” jurnalında (23 dekabr 1907, № 48) imzasız çap olunmuşdur.

(Töhmət edir qəzetçilər, - məşəri-nası bir belə!..)

İlk dəfə “Molla Nəsrəddin” jurnalında (30 dekabr 1907, № 49) imzasız çap olunmuşdur.

*Məryəm – Dini rəvayətə görə, İsa peyğəmbərin anasıdır. Bütün dinlərin tarixində atasız olan övlad guya yalnız İsa peyğəmbərdir. Şerdə kinayə ilə həmin əhvalata işarə olunmuşdur.